# Azərbaycan Ordusunun dislokasiya yerini dəqiqləşdirməsi Ermənistanı niyə narahat edir?

***Son vaxtlar Ermənistan separatizminin yenidən fəallaşması açıq-aşkar nəzərə çarpır. İşğalçı heç bir əsası olmayan müxtəlif məsələləri özünə xas hiyləgərliklə qabardaraq, bütün dünyaya yayır, Azərbaycan tərəfindən guya yeni haqsızlıqlarla üzləşdiyini bildirir. Vəziyyətə diqqət yetirəndə isə əsl həqiqət ortaya çıxır. Əslində bu gerçəklik erməni məkrinin bundan sonra da davamlı olacağından xəbər verir.***



Burada onu da qeyd edək ki, məlum 2020-ci il 10 noyabr üçtərəfli bəyanatında erməni silahlılarının Azərbaycan ərazisindən dərhal çıxarılması öz ifadəsini tapıb. Amma il yarım ərzində bu, baş verməyib. Əksinə, mövqelər yenilənib, səngərlər qazılıb, kameralar yerləşdirilib.

Ermənistanın Qarabağdan hələ də çəkilməyən separatçı törtöküntülərinin və qanunsuz silahlılarının bu ərazidə sülhə, əmin-amanlığa yönələn təhlükəsinin qarşısını almaq əvəzinə onların daha da fəallaşmasına cəhd göstərən



rəsmi İrəvan işğalçı siyasətindən əl çəkmədiyini həyasızlıqla nəzərə çarpdırır. Məsələn, bu il martın 18-də Şuşa şəhərində Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunan konfransda bu nüfuzlu qurumun nümayəndəsinin iştirakı ilə bağlı BMT-nin Ermənistandakı nümayəndəsi işğalçı ölkənin Xarici İşlər Nazirliyinə çağırılaraq, ona etiraz bildirilir. Bəli, bu, Ermənistanın Azərbaycana qarşı qəsbkarlıq siyasətindən əl çəkmədiyinin bariz ifadəsidir. Ümumiyyətlə, Azərbaycanın öz suveren ərazisində hər hansı tədbiri təşkil etməsinə və bu toplantıda beynəlxalq nümayəndələrin iştirakına Ermənistanın etirazı quldur, terrorçu dövlətin hələ də, necə deyərlər, ipə-sapa yatmamasını, revanşist əhvaldan xilas ola bilməməsini, digər ölkənin daxili işlərinə qarışmasının əsassız və yolverilməz olduğunu anlamamasını sübuta yetirir. Bu cür əməl Azərbaycana qarşı ərazi iddialarını gizlətməyən işğalçının 44 günlük Vətən müharibəsindən doğru-düzgün nəticə çıxarmadığını nümayiş etdirir.

Buradan görünür ki, Ermənistan indiyədək Şuşanın Azərbaycanın əzəli-əbədi ərazisi olduğunu anlamayıb. Digər tərəfdən, BMT-nin heç vaxt keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı neytral mövqe sərgiləmədiyini, bu nüfuzlu qurumun Baş Assambleya və Təhlükəsizlik Şurasının qətnamələrində Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyini nədənsə unudub. Ən başlıcası isə Ermənistan bu həyasız hərəkətlə hələ də Azərbaycana qarşı ərazi iddialarına son qoymadığını bütün dünyaya bəyan edərək, bölgədə sülh quruculuğu səylərinə manеə törətdiyini açıq-aşkar bir daha göstərib.

Yaxud, Ermənistan bu günlərdə Qarabağda qaz təminatı ilə bağlı Azərbaycana qarşı növbəti əsassız iddia səsləndirib. Bəs, əslində, nə baş verib? Belə ki, sözügedən qaz kəməri işğal dövründə qanunsuz olaraq Laçın rayonu ərazisindən keçməklə Ermənistandan çəkilib. Amma ölkəmiz bu dəfə də humanist mövqe sərgiləyib. Azərbaycan Dövlət Neft Şirkətinin yaydığı məlumatda son günlər Qarabağ iqtisadi rayonuna aid ərazidə uzun illər texniki xidmət göstərilmədən istismar olunan qaz paylayıcı xətlərdəki nasazlığın qaz təchizatında problemlərin yaranmasına səbəb olduğu, normadan artıq qarın yağmasına baxmayaraq, "Azəriqaz" İB-nin əraziyə gələn əməkdaşlarının çətin relyefli ərazidə qəzanın nəticələrinin aradan qaldırılması istiqamətində zəruri tədbirlər gördükləri bildirilib. "Azəriqaz" tərəfindən isə martın 29-da test yoxlamaları başa çatdırıldıqdan sonra bu bölgədə təbii qazın verilməsinin tam bərpa olunacağı vurğulanıb.

Qeyd edək ki, Azərbaycanın bu xeyirxahlığı, humanizm qarşılığında erməni xisləti–nankorluğu özünü dərhal büruzə verdi: qondarma "Artsaxqaz" şirkəti Azərbaycan Dövlət Neft Şirkətinin yaydığı məlumata dərhal məkrli münasibət bildirdi: " Azərbaycan Dövlət Neft Şirkətinin "Artsax respublikası"na qaz tədarükü prosesi ilə heç bir əlaqəsi ola bilməz... Martın 27-də Azərbaycanın bir sıra KİV-i xəbər yayıblar ki, guya "Azəriqaz" "Artsax"a gedən qaz kəmərində baş vermiş qəzanın nəticələrini aradan qaldırıb və martın 29-dan "Artsax"a qaz verilişi bərpa olunacaq. Nəzərinizə çatdırırıq ki, yuxarıda qeyd olunan bəyanat yalan və təxribat xarakterli dezinformasiyadır, onun məqsədi indiki çətin vəziyyətdən istifadə etmək və "Artsax" ermənilərini və beynəlxalq ictimaiyyəti informasiya sahəsində çaşdırmaqdır.

Nəzərinizə çatdırırıq ki, təbii qaz "Artsax respublikası"nın ərazisinə Ermənistan Respublikası ərazisindən vahid qaz kəməri ilə verilir və təchizatçı "Qazprom Ermənistan" QSC-dir (Qazprom PJSC-nin 100 faiz törəməsi). Qaz kəməri ilə gələn təbii qazın qəbulu, paylanması və abonentlərə çatdırılması "Artsax-qaz" QSC tərəfindən həyata keçirilir. Buna görə də, bəyanatda vurğulanan Azərbaycan Dövlət Neft Şirkətinin nəzdindəki "Azəriqaz"ın "Artsax respublikası"na qaz tədarükü prosesi ilə heç bir əlaqəsi ola bilməz. Belə bir vəziyyət, hətta texniki və ya coğrafi baxımdan ağlasığmazdır".

Bəli, bu fakt bir daha erməni namərdliyini, çörəyi dizinin üstdə saxladığını, yaxşılığa qarşı yamanlıq etdiyini göstərir.

Nəhayət, erməni rəsmilərinin "Azərbaycan Ordusunun irəliləməsi" haqda hay-küyü və bu barədə bütün beynəlxalq təşkilatlara ünvanladıqları müraciətlərlə bağlı iddialarına diqqət yetirək. Əslində isə bu məsələdə də Ermənistan fitnəkarlığı, beynəlxalq ictimaiyyəti aldatmaq, çaşdırmaq cəhdi sirr deyil. Belə ki, cari il martın 26-da ermənilər təxribata cəhd edib, bu zaman iki erməni silahlısı sıradan çıxarılıb və geri çəkilməyə məcbur edilib. Ümumiyyətlə, işğalçının vurğuladığının əksinə olaraq, Qarabağda heç bir gərginlik yaşanılmayıb, sadəcə olaraq, Azərbaycan Ordusu dislokasiya yerini dəqiqləşdirib. Bu isə Azərbaycan ərazi bütövlüyünə qəsdin qarşısının alınması, erməni separatçı-terrorçu tör-töküntülərinin qanunsuz əməllərinə son qoyulması məqsədi ilə gerçəkləşdirilib.

Bir daha xatırladaq ki, Azərbaycan Ordusunun dislokasiya yerini dəqiqləşdirməsi həmin ərazilərdə erməni qanunsuz hərbi birləşmələrinin silahlı qüvvələrimiz istiqamətində vaxtaşırı atəş açmalarının qarşısının almaq məqsədi daşıyıb.

Son vaxtlar baş verən bütün bu hadisələr barədə fikirləşəndə qarşıya belə bir sual çıxır: görəsən, ermənilər Azərbaycana qarşı bu haqsızlıqdan, iftiradan vicdan əzabı çəkirlərmi? Özgə torpaqları hesabına dövlət qurduqlarının insanlığa sığmadığını anlayırlarmı? Yox, müəyyən istisnaları nəzərə almasaq, onlar belə suallarıözlərinə ədalətsiz yanaşma kimi qəbul edirlər. Qarabağa, ətraf rayonlara əzəli-əbədi torpaqları kimi baxır, indiki Ermənistan deyilən coğrafiyada İrəvanı, Göyçə mahalını, Şərqi və Qərbi Zəngəzuru, hətta Naxçıvan və Gəncəni də dədə-baba yurdları adlandırırlar.

Bu xəstə təxəyyül, bu sağalmaz düşüncə tərzi qərinələrlə formalaşıb, illərlə aparılan rəsmi, qeyri-rəsmi təbliğat hesabına daşlaşıb. Erməni təbliğatçıları tərəfindən saxta uydurmaların, saxta dövlət konsepsiyasının zaman-zaman həyata keçirilməsi isə bu xalqda özünəvurğunluğun yaranmasına gətirib çıxarıb. Təbii ki, bu da reallıq, gerçəklik hissinin itirilməsi ilə nəticələnib, onları məkrli niyyətlərinə qovuşmaları üçün hər cür vəhşiliyə, hər cür rəzilliyə alışdırıb. Onların əxlaqında "əzəli torpaq" naminə qan tökmək, terror törətmək, şəhərləri, kəndləri xaraba qoymaq meyar olub, "qızıl qayda" sayılıb.

Ermənistan ərazi iddialarını reallaşdırmaq üçün daim total yalanlara əsaslanan məkrli siyasət aparıb, "timsah göz yaşları"ı tökməklə beynəlxalq birliyi çaşdırmağa çalışıb, demokratiyadan, insan azadlığından, haqq-ədalətdən dəm vuran, əməldə isə bunun əksini nümayiş etdirən havadarlarını üstümüzə qısqırtmağa nail olub. Düşmən bu əxlaqa, mənəviyyata sığmayan əməllərə iki yüz ilə yaxın bir dövrdə daim sadiq qalıb. Birinci Qarabağ müharibəsində Ermənistan tərəfindən Azərbaycana qarşı güc tətbiq edilməsi və ərazilərimizin işğal olunması BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə yekdilliklə qəbul edilən 822, 853, 874 və 884 nömrəli qətnamələrində pislənilib, ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə, onun beynəlxalq sərhədlərin toxunulmazlığına hörmət etməyin vacibliyi, Qarabağın dağlıq hissəsinin Azərbaycanın tərkib hissəsi olması təsdiqlənib, işğalçı qüvvələrin ölkəmizin tapdaq altında olan bütün ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb edilib. Digər beynəlxalq təşkilatların qəbul etdiyi, dünya birliyinin vahid mövqeyini ifadə edən çoxsaylı sənədlər də bu ruhda tərtib olunub. Lakin bütün bunlara baxmayaraq, Ermənistan bu yaramaz addımlarından çəkinməyib, bu məsələdə, şübhəsiz ki, beynəlxalq güclərinin laqeydliyi də az rol oynamayıb. İş həm də onların susması, səssiz qalması ilə kifayətlənməyib, yeri gələndə əleyhimizə qərarlar da qəbul edilib. Birinci Qarabağ müharibəsi zamanı, 1992-ci ildə ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək" Aktına qəbul edilən əlavə ilə Azərbaycana Amerikanın birbaşa dövlət yardımı yasaqlanıb. Səbəb kimi isə Azərbaycan tərəfindən "Dağlıq Qarabağ"ın "işğalı" və Ermənistana qarşı blokada yaradılması göstərilib.

Təəccüblüdür, deyilmi? Əslində isə bu, uzun bir dövrdə Azərbaycana qarşı yönələn saysız haqsızlıqlardan biridir. Ermənistanın ərazimizin 20 faizini işğal etməsi, mülki insanlarımızı genosid aktına məruz qoyması, üstəlik də ölkəmizin bir parçası olan Naxçıvanın yol-yolağasını bağlaması və bütün bunlar azmış kimi, humanitar yardımdan da məhrum etməsi, fikrimcə, dünyada sərgilənən ən ağrılı bir ədalətsizlikdir. Əgər doğrudan da Ermənistan blokadaya salınmışdırsa, bəs indi Zəngəzur dəhlizinin açılmasına, dünyaya gediş-gəlişin asanlaşmasına maraq göstərməməsi və hər vəchlə üçtərəfli bəyanatda vurğulanan bu təşəbbüsün gerçəkləşməsini əngəlləməsi nə ilə bağlıdır?

Azərbaycana yönələn haqsızlıq Vətən müharibəsinin getdiyi günlərdə da özünü qabarıq büruzə verdi. BMT Təhlükəsizlik Şurası, habelə digər beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan çoxsaylı sənədlərə əsaslanılaraq, 30 il ərzində işğalda saxlanılan ərazilərimiz azad edilən günlərdə bir sıra nüfuzlu dövlətlər yenə də ədalətsizlik sərgilədilər, Ermənistana açıq, eyni zamanda, intensiv dəstək göstərməkdən belə çəkinmədilər. Fransa Hollandiya, Avropa parlamentləri, ABŞ Konqresi erməni lobbisinin təsiri altında Azərbaycanın əleyhinə qərarlar qəbul etməklə bu haqsızlığa sadiqliklərini bir daha göstərdilər. Onların bəziləri, hətta ölkəmizin əldə etdiyi ədalətli zəfərin yaratdığı reallıqla barışmaq istəmədiklərini də gizlətməyərək, anti-Azərbaycan təbliğatını aparmaq, işğalın əbədiləşməsinə səyini əsirgəməyən Minsk Qrupunu yenidən canlandırmaq, status-kvonu "diriltmək" cəhdlərini davam etdirdilər.

Yeri gəlmişkən, rəsmi İrəvanın, eləcə də havadarlarının Minsk Qrupunun fəaliyyətinin bərpasında belə canfəşanlıqları adıçəkilən format çərçivəsindən yararlanmaqla Azərbaycanla sülh müqaviləsindən yayınmaq, ən əsası isə status məsələsini gündəmə gətirməklə mənasız, səmərəsiz müzakirələr aparmaq, bununla da əvvəllər olduğu kimi, yenə də vaxtı uzatmaq, ordusunu dirçəltmək və revanşist niyyətini dəstəkçilərinin köməyi ilə gerçəkləşdirməkdir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***